***"...Narkotik alışqanlığın xam maddəsi xaşxaşdırsa, tarix də kökü qədimlərə gedib çıxan ənənəvi münasibətlərin, etnik millətçiliyin və ideologiyaların xam maddəsidir. Əgər məqsədə uyğun olan bir keçmiş yoxdursa, bu, həmişə yenidən meydana gətirilə bilər. Keçmiş qanuniləşdirilir və iftixar ediləcək heç bir şeyi olmayan indiki dövrə təkəbbürlənəcək bir plan təqdim edir..."***

**Erik Hobsbavm**
**(Alman alimi)**



**Ermənilər mənsubiyyətlərini Nuh Peyğəmbərə və guya onun nəvəsinin nəvəsi "Hay" və ya "Hayq"a dayandıraraq, bölgənin ən qədim xalqı olduqlarını və Urartu kimi əzəmətli bir dövlət qurduqlarını tarix elminə təqdim etməkdədirlər. Beləliklə, ortaya belə bir məqam çıxır: tarix saxtalaşdırılır! Kim necə fikirləşir fikirləşsin, mənə görə, millət ola bilmək üçün tarixin saxtalaşdırılması ən mühüm ünsürdür. Nahaq yerə Ernest Renan "tarixi saxtalaşdırmaq millət olmağın ilk şərtidir" deməyib.**

# ERMƏNİ XİSLƏTİ

## "Tarixi saxtalaşdırmaq millət olmağın ilk şərtidir"

***(Əvvəli ötən sayımızda)***

Sisakların türk olduğunu göstərən faktlar var: Alban tarixçisi Musa Kalankatuklu yazır ki, sisaklar Yafətin nəslinə mənsubdur. Yafət dedikdə müəllif türkləri nəzərdə tutur, çünki müəllif Yafətin oğlanları içərisində Qamer (türk kimmerlər), Maqoq (skiflər - işkuzaylar) və Mada (madaylar) adlarını da çəkir. V əsr erməni tarixçisi Moisey Xorenatsi yazır ki, Syuninin hakimləri erməni yox, sisak nəslindəndir.

Sisak sülaləsindən olan hakimlər Aranşahlar adlanırdılar. I əsrin ortalarından Alban çarları da mənşəcə Sisak nəslindən olduqlarına görə, Aranşahlar adını daşıyırdılar. Albaniyada bu nəslin axırıncı nümayəndələrini VI əsrdə İrandan Albaniyaya gəlmiş Mehranilər qırmış və ona son qoymuşdular. Türk tarixçisi Fəxrəddin Kırzıoğlunun da verdiyi məlumatlara görə, "Si" adlı bir sülalə qədim türklərdə tarixən mövcud olmuşdur və bu barədə Çin mənbələrində rastlaşmaq mümkündür. Qeyd olunmalıdır ki, erməni tarixçisi K.Patkanov da Siuni/Syuni və Sisakan toponimlərində "Si" sözünün tayfa adı olduğunu yazmışdır. Erməni tarixçiləri Siuninin hakim sülaləsini fars dilindəki Sisakanın qısaldılmış şəkli olan Sisak sözü ilə ifadə edirdilər. I əsrin ortalarında Albaniyanın çarı olan Ərən də məhz Sisak nəslindən idi. Sisakın nəslindən olan sülalənin nümayəndələri IV əsrdən xristian olduqlarına görə, sonradan İncildən götürülmə adlar daşımağa başlamışlar. Babəki ələ verən Siuni knyazı Səhl ibn Sumbat da bu sülalədən idi. "Səhl" sözü (yazılışı ərəbcədir) isə əslində "saklı" sözündəndir və sülalənin saklara mənsub olduğunu göstərir.

Azərbaycanın şimal-şərqində Şəki, ərəb mənbələrində Babək üsyanı (816-831) ilə əlaqədar olaraq Syunidə qeyd olunan Şəki qalası, Ermənistanın Sisyan rayonunun ərazisindəki Şəki kəndi (əhalisi Azərbaycan türklərindən mütəşəkkil idi), Albaniyanın qədim əyaləti olmuş Sisakan (Zəngəzur və Göyçə mahalları, indiki Naxçıvanın onlarla həmsərhəd rayonları) toponimləri göstərir ki, hər halda saklar bu ərazilərdə məskun idilər. M.Y.Marr yazırdı ki, Ermənistanın şərq əyalətlərinin ən qədim əhalisi saklar olmuşlar.

Bütün bu araşdırmaların təhlili onu deməyə imkan verir ki, ermənilər indiki Ermənistanın aborigenləri deyillər. Bunu qədim erməni tarixçilərinin özləri də qəbul ediblər.

Ermənilərin etnik mənşəyinə və tarixinə dair irəli sürülən digər mülahizələrə də nəzər salaq. Erməni alimlərindən Akop Məlik Akopyan, digər adıyla Raffi, özünün "Samvel" adlı əsərində yazır: "...Bizim tariximizdə xalq tamamilə unudulub. Biz erməni kəndlisinin necə yaşadığını, nə yeyib, nə içdiyini, nə cür qiyafətlər geydiyini bilmirik. Biz erməni sənətkarlarının hansı işlərlə məşğul olduqlarını, erməni tacirlərinin hansı ölkələrlə ticari əlaqələr qurduqlarını belə bilmirik. Bizim tariximiz bütün bunlar barədə susur... Bizim tariximizdə hətta xalqımızın ən əzəmətli gücü olan qadınlarımız haqqında da heç bir məlumat yoxdur..." Daha sonra o, "...beləliklə, bizim quru tariximiz tədqiqatçıya çox az məlumat verir. Bizim qədim ədəbiyyatımız kilsə yazılarından o tərəfə gedə bilmir. Bizim qədim ədəbiyyatda həyat tərzlərinin, adət-ənənələrin, ailənin və ictimai əlaqələrin təsviri yoxdur...", deyə yazır.

Göründüyü kimi, erməni tarixində bir müəmmalıq, bir ziddiyyətlik vardır. Erməni tarixindəki bu müəmmaya diqqət verən Paul Henzeyə görə, erməni tarixinin incələnməsi və araşdırılması asan deyil. Bu tarix uzun, qarmaşıq, qismən qaranlıq və ümumiyyətlə mübahisəlidir. Erməni tarixi demək olar ki, tamamilə ermənilər tərəfindən yazılıb. Çünki öz tarixini yazan bir şəxs və ya o millətin ziyalı təbəqəsi onu təbii ki, böyüdəcək və ululaşdıracaq, eyni zamanda onun mübahisəli nöqtələrini obyektiv şəkildə olduğu kimi araşdırmadan yan keçəcəkdir. Ermənilərdə bu vəziyyət xüsusilə görülməkdədir və XX əsrin ortalarından etibarən çox açıq bir şəkildə ortaya çıxmışdır.

Ümumiyyətlə, ermənilər öz tarixlərini gördükləri kimi deyil, görmək istədikləri kimi yazmış və bunun propaqandasını aparmışlar. Öz tarixlərini daha da qədimlərə apararaq dünya mədəniyyətini, yazını, astrologiyanı, mis və dəmir mədənçiliyini özlərinin kəşf etdiyini və dünyada insan həyatının Sevan gölü (Göyçə gölü) sahillərindən başladığını iddia etməkdə və xristianlığı ilk qəbul edən xalq olaraq fəxr etməkdədirlər.

Beləliklə, belə bir məqamla qarşılaşırıq: yazılı tarixin qəbul etdiyi, elmi metodologiyanın (?) sənədlərə əsaslanaraq isbat etdiyi "Böyük Ermənistan Dövləti" də mövcud olmamışdır. Bu mənzərə qarşısında tarix boyunca nə müstəqil bir Ermənistan, nə də erməni millətinin varlığından bəhs etmək tarixi bir həqiqət olaraq göstərilə bilməz. Belə bir vəziyyətdə erməni dövlətinin tarixindən də bəhs etmək çətinləşir.

Bu da bir həqiqətdir ki, ermənilər Cənubi Qafqaza, xüsusilə də Azərbaycana və indiki Ermənistana, günümüzdəki Dağlıq Qarabağ probleminə də səbəbiyyət təşkil edən 1828-ci ildə Rusiya ilə İran arasında bağlanmış olan Türkmənçay müqaviləsinin XV maddəsinə uyğun olaraq ruslar tərəfindən köçürülmüşlər. Rusiyanın o dövrdə Tehrandakı səlahiyyətli nümayəndəsi və elm adamı Nikolay Şavrov bu həqiqətləri təsdiq edir: "...Biz koloniya siyasətinə cənubi Qafqaza rusları deyil, başqalarını yerləşdirərək başladıq. 1828-ci ildən 1830-cu ilə kimi biz Cənubi Qafqaza İrandan 40.000-dən, Türkiyədən isə 84.000-dən çox erməni köçürmüş və onların əhalisini azlıqda olduğu Yelizavetpol və İrəvan quberniyalarının ən yaxşı torpaqlarında yerləşdirmişik. Yerləşmək üçün onlara 200.000 desyatindən çox xəzinə torpağı ayırmış və onlar üçün 2 milyon rubl dəyərində xüsusi torpaq ərazisi satın alınmışdır. Gəncənin dağlıq hissəsinə və Göyçə gölü sahilinə ermənilər yerləşdirildi. Qəbul etmək lazımdır ki, rəsmi olaraq yerləşdirilən 124.000 ermənidən əlavə qeyri-rəsmi olaraq yerləşdirilənlərlə bərabər sayları 200.000-i keçmir. Bu əsrin əvvəllərində Cənubi Qafqazda 1.3 milyon olan ermənilərin 1 milyondan çoxu göstərilən mənbələr əsasında bu bölgənin yerli xalqı olmayıb, bizim tərəfimizdən yerləşdirilənlərdir...

Erməni tarixçisi M.Q.Nersesyan Türkmənçay müqaviləsindən sonra İrəvan və Qarabağ bölgəsinə İran və Türkiyədən ermənilərin köçürülməsi həqiqətini doğrulayaraq yazır: "...XIX əsrin 20-ci illərinin sonunda bu bölgələrə İrandan 40 mindən çox, Türkiyədən isə 90 mindən çox erməni köçürülmüşdü". Göründüyü kimi, ermənilərin Qafqazın qədim və yerli sakinləri olmadıqları, sonradan buralara gəldikləri rus və erməni tarixçilərinin əsərlərində və arxiv materiallarında da mövcuddur. Bu həqiqəti doğrulayan elm adamlarının da yazdıqları kimi, ruslar tərəfindən Cənubi Qafqaza gətirildiklərini ermənilər hardasa yaddan çıxarırlar.

Ümumiyyətlə, ermənilərin Qafqazda dövlətləri olmadığı mövzusunda digər xarici elm adamlarının da əsərlərində rast gəlmək mümkündür. Fransız alimi Jorj de Molevil Ermənistanın mövcudiyyəti haqqında yazır: "... İngiltərənin iradəsilə çar imperiyasının xarabələri üzərində qurulub qısa bir ömür sürən (1918-1920) Erməni Respublikası bütün tarixi boyu mövcudiyyəti qeyd edilən yeganə müstəqil erməni dövləti idi..."

Tarixi materiallar əsasında ortaya çıxan məqama görə, müasir erməni elm adamları elmi metodologiyanı və həqiqətləri deyil, obyektiv və elmi olmayan fərqli bir tarixçilik yolunu mənimsəyiblər. Tarixçilərin də qeyd etdikləri kimi, olmayan "Böyük Ermənistan" dövlətinin varlığını isbat etməyə cəhd göstərən ermənilər Türkiyə və Azərbaycan torpaqlarına qarşı ərazi iddiaları irəli sürməkdədirlər. Bütün bunlar bir fantaziya olaraq görülsə də, ermənilər Azərbaycanı öz problemləri içərisinə çəkməyə nail olublar. Vəziyyəti fantaziya olaraq dəyərləndirmək doğru deyil. Bir vaxtlar Ermənistan dövlətinin qurulacağı da fantaziya olaraq hesab edilirdi. Amma günümüzdə Ermənistan deyə bir dövlət mövcuddur. Böyük Ermənistan dövlətinin qurulması mümkün olmaya bilər, amma bunu qlobal oyunun bir parçası olaraq dəyərləndirmək hər halda yanlış bir ifadə olmaz. Bu səbəblə xarici qüvvələrin də dəstəyini alan ermənilər istər Azərbaycana, istərsə də Türkiyəyə qarşı ərazi iddiaları ilə çıxış edirlər. Əsl həqiqət budur ki, Azərbaycan və Türkiyəyə qarşı iddiaların, daha doğrusu, "Böyük Ermənistan" əfsanəsinin arxasında sırf Ermənistan dayanmır. "Böyük Ermənistan" iddiası böyük dövlətlərin də maraqlarına uyğundur.

Tarixə nəzər salsaq, böyük dövlətlərin erməni iddialarına nə dərəcədə əhəmiyyət verdikləri açığa çıxar.

Tarix 18-26 aprel 1920-ci il. Bu tarixdə İtaliyanın cənubunda yerləşən San Remo əyalətində bir araya gələn müttəfiq dövlətlər Böyük Ermənistan dövlətinin qurulması və bu dövlətin ABŞ-ın himayəsinə verilməsinə dair qərar qəbul etmişdilər.

O dövrün ABŞ prezidenti Vudrov Vilson şəxsən özü Ermənistan dövlətinin sərhədlərini müəyyən edən bir xəritə hazırlamış, daha sonra isə təsdiq edilməsi üçün 24 may 1920-ci ildə bu xəritəylə birlikdə himayə qərarını Təmsilçilər Məclisinə təqdim etmişdi. Himayə qərarının bir bölümündə bu yazılar yer alır:

"...ABŞ ermənilərin qarşılaşdığı kədərli hadisələrdən, etimadsızlıqdan, aclıqdan və səfalətdən xeyli təsirlənmişdir. Ermənilərə duyulan simpatiya xalqımızın yalnız bir hissəsinin hissiyyatı deyil. Bu simpatiya ABŞ-da yaşayan bütün xalqın, xristian kütlənin olduqca mürəkkəb bir şəraitdə yaşayan ermənilərə qarşı fövqəladə, öz-özlüyündən ortaya çıxan səmimi duyğusudur. ABŞ xalqı mövcud problemlə bağlı olaraq ermənilərin dərdinə şərik olur.

Konqresə çox kritik bir layihəni təqdim etdiyimin fərqindəyəm. Amma xristian xalqların ən böyüyü olaraq qəlbdən gələn böyük istək və həvəslə bu təklifi verirəm. Xalqımızın ermənilərə olan məhəbbəti tərtəmiz hisslərdən, saf xristian inamından, səfalət içərisində qıvrılan xristianları xilas etmək duyğusundan, onları səfil bir xalq olmaqdan xilas edib, sərbəstliklərini təmin edərək dünyanın azad xalqları arasında özlərinə layiq yer tutmalarına şərait yaratmaq istəyindən qaynaqlanır. Bizim müstəqil bir Ermənistan dövlətini tanımağımız, erməni xalqının həqiqi azadlığına və vəd edilmiş xoşbəxtliyə qovuşması mənasına gəlir..."



**Mürsəl İRƏVANLI,**
***Yazıçı-publisist, M.Qorki adına BeynəLxalq mükafat laureatı***